Xalq qəzeti 2020.- 18 dekabr.- S.5.

**Bəzi tarixi mənbələrə görə, erməni qəbiləsi qədim zamanlarda Hindistandan qovulub qədim Mesopotomiya ərazisinə sığınmış və oradan da Şərqi Avropaya yayılmışdır. Özlərinin ibarəsi ilə desək, Avropa xalqları ilə "genetik uyğunsuzluq" problemi yaşayan ermənilər bu dəfə Balkanlardan çıxarılmış, daha sonra isə Kilikiya ərazisindən qovulmuşlar.**

# Qarabağ iddiası Ermənistan üçün "bəd xassəli xərçəng"ə döndü

2 əsr əvvəl bölgəmizdə baş verən dramatik tarixi hadisələr zamanı--Rusiya imperiyası Azərbaycanın quzey hissəsini işğal etdikdən sonra İrandan və Türkiyədən köçürdüyü on minlərlə erməni ailəsini Qafqazlara özünə yad toplum bildiyi türk-müsəlman əhalinin torpaqlarında məskunlaşdırmışdır. O zamandan etibarən Şərqi Anadolu və Azərbaycan ərazisində ürəyib-artan və hələ də mağara təfəkkürü ilə yaşayan ermənilər xərçəng xəstəliyi kimi, bütün dünyaya yayılmaqda davam etmişlər.



Erməni xərçənginin son metastazı 1988-ci ildə özünü Azərbaycanda göstərdi. 5 il ərzində günbəgünşiddət edən bu xəstəlik Qarabağda bədxassəli şişə çevrildi və düz 30 il ərzində Azərbaycana görünməmiş əzablar yaşatdı. Erməni xərçənginin müalicəsi üçün dünyanın başbilənləri sayılan dövlətlərin--ABŞ, Fransa və Rusiyanın 30 ilə yaxın apardığı başaldadan "müalicə" cəhdləri də heç bir nəticə verməyəndə Azərbaycan özü şəfalı cərrah bıçağı ilə Qarabağın sinəsinə çıxmış bədxassəli erməni şişini kəsib atmalı oldu.

Erməni xərçənginin növbəti metastazın harada baş qaldıracağı barədə ehtimallar çoxdur. Rusiyanın cənub-qərb bölgələri, Gürcüstan, İran və Türkiyə ərazisi əsas risk zonaları hesab oluna bilər. Amma Qarabağda baş verənlərdən bütün dünyanın məlumatlı olması gələcəkdə yeni metastaz hallarının residiv--təkrarlanma ehtimalını xeyli azaldıb.

Düşünmək olardı ki, 44 günlük savaşda ordusunu, ictimai-siyasi və iqtisadi-sosial inkişaf imkanlarını, saxta qürurunu və ləyaqətini itirmiş ermənilər tarixi hadisələrdən doğru nəticə çıxarıb miflərlə yaşamaq yox, real dövlət qurmaq zərurətini dərk edəcəklər. Amma Ermənistan mətbuatına nəzər salanda bu zərurətin erməni cəmiyyətində hələ də dərk olunmadığı görünür.

Erməni millətinin "müstəsnalığı", erməni tarixinin "qədimliyi", erməni xristianlığının "birinciliyi", erməni ordusunun "yenilməzliyi" və s. haqqında saysız-hesabsız əfsanələrlə zombiləşmiş erməni ictimai şüuru obyektiv reallıqdan uzaqlaşıb bu xəstə düşüncəli toplumu paralel-- virtual aləmdə xumarlandırmaqda davam edir. Ermənistan siyasi palitrasının istisnasız olaraq bütün nümayəndələri tarixin təkərini geri döndərməyə cəhd edən yalançı pəhləvanları xatırladırlar.

Mövcud şəraitdə erməni cəmiyyəti qarşısında duran prioritetlərin müəyyən edilməsində əksər siyasətçilər məlum 10 Noyabr Bəyanatının nəticələrinin ləğv edilməsinə nail olmaq üçün yalnız istehza doğura biləcək və yeni hiyləgər planlar, aciz və gülünc təkliflər irəli sürürlər. Müstəqil Ermənistan dövlətinin yaradılması zərurəti kimi ilkin vacib vəzifə isə liderlərdən heç birinin ağlına belə gəlmir.

Birləşmiş müxalifətin ölkə rəhbəri postuna yeni vahid namizədi-- Qarabağ münaqişəsinin özülündə dayanan millətçi ekstremistlərdən, 1988-ci ildə bədnam "Qarabağ" komitəsinin təsisçilərindən və "Miatsum" hərəkatının təşəbbüsçülərindən biri olmuş Vazgen Manukyan baş nazir Paşinyanı istefaya göndərib, üçtərəfli Bəyanatın şərtlərinə yenidən baxılmasından danışır. Bu müharibə canisinin baş nazir postuna yiyələnməklə milli ədavətin dərinləşməsinə rəvac verəcəyi ermənilərə yaxşı məlumdur. Buna baxmayaraq və ya bəlkə də, məhz buna görə 16 siyasi partiya ölkənin böhran vəziyyətindən çıxarılmasını məhz bu qatı cinayətkara həvalə etmək fikrində yekdildir.

Yenicə xarici işlər naziri təyin olunan, keçmişdə tacirliklə səfirlik funksiyalarını bir arada daşımış Ara Ayvazyan da Rusiyaya etdiyi ilk xarici səfərində irəli sürdüyü məşhur tezisləri ilə ermənilərdən başqa hamını təəccübləndirib. Özündən əvvəlki sələfinin acı taleyinin səbəbini anlamayan Ara Ayvazyan aşağıdakıları bəyan edib: "Ermənistan Artsax xalqının öz müqəddəratını təyin etməsi hüququnun tanınması və təhlükəsizliyi mövqeyindən çıxış edib və edir"; "Türkiyə silahlı personalını və onlarla bağlı olan terrorçu qrupları Qarabağ münaqişəsi zonasından və ümumilikdə Cənubi Qafqazdan çıxarmalıdır".

Qarabağda müharibə zamanı qaçıb gizlənən fərariləri öz meşələrindən tapıb çıxara bilməyən bir ölkənin xarici işlər naziri Türkiyədən hərbi personalını Cənubi Qafqazdan çıxarmağı tələb edir. Gülməli deyilmi? Yeni nazirin son 2 ayda baş vermiş hadisələrdən xəbərsiz kimi danışması müxalifətlə yanaşı, Ermənistan iqtidarında da hərtərəfli böhrandan çıxış yolları haqqında heç bir təsəvvürün olmadığını göstərir.

"Armenian Report" nəşri isə yazır: "Putin türklər üzərində şərəfli qələbələr qazanan və həmişə bizi mühafizə edən rus çarlarının və I Pyotrun vəsiyyətinə xəyanət etdi". Deməli, erməni ziyalısının da şüurunda ölkəsinin təhlükəsizliyinin zəmanəti müstəqil Ermənistan dövləti və onun ordusu yox, yalnız rus çarlarının vəsiyyəti imiş.

Televiziya kameralarına müsahibə verən sadə erməni vətəndaşları da savaşdakı uğursuzluğu məhz onlara "kömək" olunmaması ilə əlaqələndirirlər. İşğalın, saxta soyqırımı və ərazi iddialarının əsassız olduğu və bütün uğursuzluqların məhz bu əsassız tələbdən qaynaqlandığı isə heç bir erməninin ağlına belə gəlmir.

Beləliklə, bütün yanaşmalar müstəqil Ermənistan dövlətinin sağlam əsaslarla qurulmasını və region dövlətləri ilə sıx əməkdaşlıq şəraitində dünya tərəfindən tanınmış sərhədləri çərçivəsində öz xalqının rifahı üçün çalışmasını istisna edir. Hələlik mövcud hərbi-siyasi böhrandan çıxış yolları isə növbəti dəfə də hansısa xarici dövlətin himayəsinə bel bağlamaq və bundan sonra kimə sığınmaq haqqında absurd mülahizələrə söykənir.

Görünən odur ki, Qafqazda olduqları 2 əsr ərzində terrorçuluq, düşmənçilik, qonşu xalqlara qarşı həsəd və nifrət, militarizm və revanşizm iddiaları ilə dəfələrlə siyasi bataqlığa girmiş ermənilərin şüurunda sonuncu acı məğlubiyyət də dönüş yarada bilməyib. Dəfələrlə cərrahi əməliyyata məruz qalsa da "bəd xassəli xərçəng" erməni ictimai-siyasi şüurunda inadkarlıq göstərir. Bu məntiqlə yaşadığımız yüzillikdə Ermənistan adlı bir siyasi subyektin dünya xəritəsində sağ qala biləcəyi şübhəli görünür.

Universal siyasi təcrübənin yekdil qənaətinə görə, hər bir xalqın özünə layiq olan rəhbəri və dövləti olur. Ermənistanın da olanı budur. Həqiqi tarixi, mədəniyyəti, keçmişi və gələcəyi haqqında özünün də doğru təsəvvürü və aydın anlayışı olmayan bir xalqın müstəqil dövləti ola bilərmi?!

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı, fəlsəfə doktoru***